**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Sosial və pedaqoji psixologiya kafedrası**

**Sosial psixologiya -6114.01 ixtisası üzrə**

# SOSİAL PSİXOLOGİYA

***fəlsəfə doktoru proqramı üzrə minimum imtahanı üçün***

**P R O Q R A M**

**BAKI – 2026**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Sosial və pedaqoji psixologiya kafedrası**

**Sosial psixologiya -6114.01 ixtisası üzrə**

# SOSİAL PSİXOLOGİYA

***fəlsəfə doktoru proqramı üzrə minimum imtahanı üçün***

## P R O Q R A M

*Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin Elmi Şurasının 19 mart, 2026-cı il tarixli, 07 saylı protokolu ilə təsdiq edilmişdir.*

**BAKI – 2026**

**Proqramı hazırlayanlar:** **Psixol.ü.f.d., dos. G.Q.Hüseynova**

**Psixol.ü.f.d., dos. L.M. Cabbarova**

**Elmi redaktor:** **Psixol.e.d., prof. K.R. Əliyeva**

**Rəyçilər:** **Psixol.ü.f.d., dos. S.S.Mirzəyeva**

**Psixol.ü.f.d., dos. İ.M.Məmmədli**

# İZAHAT VƏRƏQİ

Psixologiya elminin əsas sahələrindən biri kimi Sosial psixologiya başqa insanların mövcudluğunun bizim fikir və düşüncələrimizə, hiss və davranışımıza necə təsir etdiyini öyrənir.

Proqram 6114.01- Sosial psixologiya ixtisası üzrə fəlsəfə doktoru proqramı istiqamətində minimum imtahanının keçirilməsi üçün tərtib olunmuşdu.

İmtahanın keçirilməsinin əsas məqsədi - sosial psixologiya üzrə ixtisaslaşan və psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq iddiasında olan namizədlərin ixtisası üzrə bilik və bacarıqlarının, hazırlıq səviyyələrinin müəyyən edilməsindən ibarətdir. Belə ki, bu sahədə ixtisaslaşan və tədqiqat aparan iddiaçılar sosial psixologiyanın əsas anlayışlarını və kateqoriyalarını, sosial-psixoloji konsepsiyaları, təzahür və prosesləri, qanunauyğunluqları və mexanizmləri bilməli, həmçinin, sosial-psixoloji tədqiqatın spesifik xüsusiyyətləri, dizaynı, metodları və s. kimi məsələlərlə yanaşı, peşəkar etik prinsiplər, qaydalarla bağlı zəruri məlumatlara malik olmalıdırlar.

Proqram sosial psixologiya sahəsində mövcud olan yerli və xarici ədəbiyyatlara istinad edərək həm klassik, həm də müasir tədqiqatlara əsaslanır. Proqramın tərtibində Azərbaycan, türk, rus və ingilis dillərində mövcud olan ədəbiyyat və internet resurslarından istifadə olunmuşdur.

# I BÖLMƏ. SOSİAL PSİXOLOGİYA BİR ELM KİMİ

## *Mövzu 1. Sosial psixologiyanın elmlər sistemində yeri.*

İnsan - sosial mühitdə sosial təsirin obyekti kimi. Sosial psixologiyanın predmeti ilə bağlı əsas fikirlər. Güzəran düşüncəsi və sosial-psixoloji biliklər. Sosial psixologiyanı öyrənməyin əhəmiyyəti.

Sosial psixologiyanın digər elmlərlə, həmçinin psixologiyanın digər sahələri ilə əlaqəsi (sosiologiya, ümumi psixologiya, şəxsiyyət psixologiyası və s.).

Sosial-psixoloji biliklərin ilkin tarixi formaları. Sosial psixologiyanın inkişaf mərhələləri. İlk sosial-psixoloji konsep-siyalar (M.Latsarus, Q.Şteyntal, V.Vunt, Q.Tard, Q.Lebon, Mak-Douqal və b.). Sosial psixologiyada əsas nəzəri istiqamətlər: psixoanaliz, neobiheviorizm, koqnitivizm, interaksionizm. Müasir sosial- psixoloji nəzəriyyələr. Azərbay-canda sosial-psixoloji ideyaların təşəkkülü və inkişafı.

## *Mövzu 2. Sosial- psixoloji tədqiqatların metodoloji problemləri.*

Nəzəri ideyaların ölçülə bilinən suallara çevrilməsi. Elmi və qeyri-elmi məlumat mənbələri. Hipotez və nəzəriyyənin formalaşdırılması. Sosial psixologiyada elmi tədqiqatın təşkili xüsusiyyətləri. Sosial-psixoloji tədqiqatın əsas metodları: Korrelyasiya və eksperiment. Eksperimentdə asılı və asılı olmayan dəyişənlər. Sahə eksperimentləri.

Sosial psixologiyada empirik tədqiqatların spesifikliyi: nəzəri və empirik materialların nisbəti, empirik məlumatların xarakteri, sosial-psixoloji informasiyaların keyfiyyəti, mötəbərliyi və məlumatların əsaslılığı.

Tədqiqatda reprezentativlik və nəticələrdə sabitlik.

Müşahidə - sosial davranışın təsviri metodu kimi. İştiraklı müşahidə.

Sənədlərin təhlili metodu. Kontent-analiz. Sorğu üsulları və onların növləri (anket, intervyü, söhbət və s.). Sorğuların tərtibi qaydaları.

Kross-mədəni tədqiqatlar.Nəzəri və tətbiqi tədqiqatlar.

Sosial-psixoloji tədqiqatlarda etik problemlər.

## II BÖLMƏ. ÜNSİYYƏT VƏ SOSİAL MÜNASİBƏTLƏR

### *Mövzu 1. Ünsiyyət.*

Sosial psixologiyada ünsiyyət kateqoriyası. Ünsiyyətin strukturu və funksiyaları. Ünsiyyət kommunikasiya prosesi kimi. Kommunikativ prosesin strukturu: kommunikator, məlumat, resipiyent, auditoriya, informasiyanın ötürülməsi kanalı. Ünsiyyətin növləri. Verbal və qeyri – verbal kommunikasiya.

Kommunikativ təsir.Ünsiyyət prosesində psixoloji təsir vasitələri: sirayət, təlqin, təqlid, inandırma, şayiə, moda. Ünsiyyət prosesində inandırma texnikaları.

Kommunikativ maneələr.

Ünsiyyət – interaksiya prosesi kimi. Qarşılıqlı təsirin növləri.

Ünsiyyət sosial persepsiya prosesi kimi. Qarşılıqlı anlamanın mexanizmləri: identifikasiya, empatiya, refleksiya, kauzal atribusiya.

### *Mövzu 2.Sosial psixologiyada sosial və şəxsiyyətlərarası münasibətlər.*

Psixologiyada münasibət kateqoriyası. Şəxsiyyətlərarası münasibətlərin komponentləri. Şəxsiyyətlərarası münasibətlərin formaları. Attraksiya anlayışı. Attraktivliyə təsir edən amillər (yaxınlıq, oxşarlıq, qarşılıqlı simpatiya, fiziki cazibədarlıq, özünüqiymətləndirmə və özünəhörmət, gözəllik standartları).

Yaxın münasibətlər: dostluq, məhəbbət və bağlılıq. Bağlılıq tərzləri. Ayrı-ayrı mədəniyyətlər, gender və yaxın münasibətlər.

## *Mövzu 3. Prososial davranış.*

Prososial davranış, altruizm, eqoizm və empatiya anlayışları. Təkamül psixologiyası yanaşması: instinkt və genlər. Sosial mübadilə nəzəriyyəsi. Empatiya-altruizm nəzəriyyəsi. Kimlər kömək edir: prososial davranışın şəxsiyyətdən asılı olan determinantları (fərdi və gender xüsusiyyətləri, emosional durum və s.). Hansı hallarda kömək edilir: prososial davranışın situasiyadan asılı olan determinantları (yaşayış mühiti, urbanizasiya, Baystander effekti).

## *Mövzu 4. Aqressiya.*

Aqressiyanın mahiyyəti. Aqressiya nəzəriyyələri. Təkamül psixologiyası yanaşması. Frustrasiya-aqressiya nəzəriyyəsi. Sosial öyrənmə nəzəriyyəsi. Aqressiyanın əsas növləri və tipləri. Aqressiyanı şərtləndirən bioloji amilər (sinir sisteminin xüsusiyyətləri, genlər, biokimyəvi təsirlər). Aqressiyanın sosial determinantları. Medianın aqressivliyə təsiri.

# III BÖLMƏ. SOSİAL İDRAK

### *Mövzu 1. Sosial idrak və kateqoriyalaşdırma.*

Sosial dərketmə və onun təşkili xüsusiyyətləri. Sosial-idraki proseslər. Ətraf aləmin dərki. Sosial aləmin qurulması prosesinin mexanizmləri. Ətraf aləmlə qarşılıqlı təsir: informasiya axını və onun işlənilməsi, emalı üçün vasitələr. Kateqoriyalaşdırma və koqnitiv qənaət. Qavrayış, təfəkkür və hərəkət arasında əlaqə. Sosial idrak prosesləri və keçmiş təcrübə. Sosial idrak və özünüqiymətləndirmə. Hayndsayt səhvi (keçmişə baxış). Fərdin şəxsi keyfiyyətlərinin sosial idrak prosesinə təsiri. Sosial kateqoriyalaşdırma: cins, yaş, milliyyət, din, sosial status və s. Kateqoriyalar arasında sərhədlər və inkişaf prosesi. Sosial idrakın effektləri (oreol, yenilik, ilkinlik, prayminq, səbatlılıq və b.).

### *Mövzu 2. Sosial inandırma.*

Sosial təsəvvürlər və psixoloji, həmçinin, sosial reallığın yenidən emalı. Sosial təsəvvürlərin formalaşması prosesi. Sosial təsəvvürlər, hafizə, etiqad və ideologiya.

İnandırma prosesinin effektivliyini şərtləndirən amillər. İnandırma prosesinin asılı və asılı olmayan dəyişənləri. İnandıran insanın şəxsiyyəti ("kommunikator"). İnformasiyanın məzmunu. Kommunikasiya kanalı. Auditoriya. İnformasiya mənbəyinə inam və "Yatmış insan" effekti. İnandırma, səriştəliliyin qavranılması və etibarlılıq. "Qorxu hissinin oyadılması" effekti. Fikir ayrılığı və əks mövqe, düşüncə. İnandırmanın mərkəzi və periferik yolu. Qrupun təsiri. İnandırılmaya müqavimət: yönəlişlərin inokulyasiyası. Şəxsi mövqeyin gücləndirilməsi.

*Mövzu 3. "Mən" sosial mühitdə.*

"Mən"- konsepsiya sosial-psixoloji fenomen kimi. Mənlik şüuru və özünüdərketmə prosesi. Öz şəxsi davranışının izah olunması. "Mən"-konsepsiyanın strukturu və məzmunu. "Mən"- konsepsiya və özünüqiymətləndirmə. Sosial ətraf və özünühissetmə. Eqoizm və sosial mühakimələr. "Mən" – sxemlər. "Sosial Mən"in inkişafı prosesi. Sosial identiklik və "Mən"in sosial təyini. Uğur və uğursuzluq. Mən və mədəniyyət: öz şəxsiyyətinə müstəqil və başqalarından asılı olan baxışlar. Davranışın və hisslərin proqnozlaşdırılması. Yönəlişlərin ikili sistemi. Nəzarət lokusu. Neqativ və pozitiv hadisələrin izahı. Əsası olmayan optimizm. Yalançı konsensus və yalançı unikallıq. Özünəhörmət motivasiyası. Özünütəqdimetmə.

*Mövzu 4. Kauzal atribusiya nəzəriyyəsi.*

Başqa insanın davranış və hisslərinin yozulması mexanizmləri. F. Hayderin atribusiya modeli. Kauzal atribusiyanın müasir nəzəriyyələri: H.Kelli. Dispozisiya (daxili) və şəraitdən asılı olan (xarici) atribusiyalar. Sağlam düşüncə atribusiyaları. Kauzal atribusiya nəzəriyyəsinin əsas müddəaları: sabitlik, istisnalıq və müvafiqlik. Səbəbiyyət sxemləri: şəxsi atribusiya, şəraitlə əlaqələndirilən atribusiya, stimul atribusiyası. Kovariasiya. Real kauzal atribusiyanın ideal modellərdən sapılması: informasiya fərqliliyi və motivasiyadan asılı olan önyarğı. Atribusiya səhvləri: fundamental atribusiya səhvi, "illüziya təsəvvürləri" səhvi, "yalançı razılıq" səhvi. Müşahidəçilərin meylləri. Perspektiv və şəraitdən asılı olan dərketmə. Atribusiyalar və mədəni fərqlər.

İntuisiya: daxili biliklərimizin gücü və hüdudları.

Hadisələrin qavranılması və şərhi. Keçmişdə olan yönəlişlərin və davranışların yenidən bərpa edilməsi. Evristik yanaşma. İllyüziya xarakteri daşıyan korrelyasiyalar. Nəzarət illyüziyası. Əqidə və insanın özünün şəxsi müddəalarının ümumiləşdirməsi. Gözləmələr və davranış.

## Mövzu 5. Davranış və yönəlişlər. Koqnitiv dissonans.

Sosial yönəliş anlayışı. Sosial yönəlişlərin öyrənilməsində D.Uznadzenin yönəlişlərlə bağlı nəzəriyyəsinin əhəmiyyəti. Sosial yönəlişlərin tədqiqində müxtəlif yanaşmalar. "Attityüd" anlayışı. Koqnitiv, emosiyalar və davranış əsasında formalaşan yönəlişlər. Yönəlişlərin davranışa təsiri. Sosial yönəlişlərin strukturu:koqnitiv, affektiv (emosional) və davranış komponentləri. Attityüdların funksiyaları. Sosial rollar və gözləmələr. Sosial yönəliş və real davranış arasında əlaqə (Lapyer paradoksu). Sosial davranışın dəyişilməsi problemi. Attityüdların dəyişilməsini izah edən modellər: öyrənmə prinsipi, "uyğunluq nəzəriyyələri". Attityüdların neobihevioristik və koqnitiv nəzəriyyələri. "Ayaqlar qapı arasında" fenomeni. Yönəlişlər və möhkəmlənmiş təcrübə. Davranışın yönəlişlərə təsiri. Mədəniyyət və yönəlişlər. Qərəzli hərəkətlər və yönəlişlər. Qruplararası ünsiyyət və qrup yönəlişləri (yaş, cins, etnik mənsubiyyət, mədəniyyət və s.). "Beyinin yuyulması".

L.Festingerin koqnitiv dissonans nəzəriyyəsi. Koqnitiv dissonans və yetməyən bəraət effekti. Qərar qəbulundan sonra dissonans.

# IV BÖLMƏ. SOSİAL PSİXOLOGİYADA QRUP PROBLEMİ

## *Mövzu 1. Sosial psixologiyada qrup problemi.*

Qrup sosial-psixoloji fenomen kimi. "Qrup" anlayışının mahiyyəti: sosial və qeyri-sosial qruplar. Sosial psixologiyada qrupların öyrənilməsinin əsas istiqamətləri: sosiometrik (C.Moreno), sosioloji (E.Meyo), "Qrup dinamikası" məktəbi (K.Levin), stratometrik (A.Petrovski). Başqalarının sadəcə mövcudluğu effekti: sosial fasilitasiya, sosial tənbəllik, sosial inhibisiya.

Deindividualizasiya fenomeni.

Qrupların əsas xarakteristikaları: qrup maraqları, dəyərlər, tələbatlar, normalar, fikirlər, məqsədlər. Qrupların təsnifat meyarları. Qrupların tipologiyası: şərti və real, rəsmi və qeyri-rəsmi, mütəşəkkil və qeyri-mütəşəkkil, böyük və kiçik, ilkin və ikincili, formal və qeyri-formal, üzvlük və referent qruplar.

Kiçik qrupların psixologiyası: kompozisiya, kiçik qrupun strukturu, qrup prosesləri, qrup normaları və dəyərləri, sanksiyalar sistemi. Qrup normaları. Şəxsiyyətin qrupda movqeyi, statusu və rolu. Qrup differensasiyası.

Qrupa aidlikdən qane olma və qane olmama - qrupda şəxsiyyətlərarası münasibətlərin dəyərləndirilməsinin əsas meyarı kimi.

## *Mövzu 2. Kiçik qruplarda dinamik proseslər.*

Kiçik qruplarda dinamik proseslərin ümumi xarakteristikası.

Kiçik qrupların yaranması. Qrupun yaranmasını şərtləndirən xarici və daxili amillər.

Qrup təzyiqi fenomeni. Konformizm və ya çoxluğun təsiri. M.Şərifin avtokinetik effektlə bağlı eksperimental tədqiqatları. İnformasiyanın təsiri və onu şərtləndirən amillər. Zahiri və daxili konformizm. Normativ sosial təsir: qəbul olunmağa tələbat. S.Aşın eksperimentləri. Normativ təsiri şərtləndirən amillər. Moda – normativ sosial təsirin bir təzahürü kimi. Davranışın konform və qeyri-konform tipləri. Konformizm və nonkonformizm. Azlığın təsiri. Avtoritetin sosial təsiri. S.Milqram eksperimenti: avtoritetə tabe olma.

Qrup qərarının qəbulu və onu şərtləndirən amillər. "Qrup qütbləşməsi" fenomeni. Qrup düşüncəsi. "Riskə doğru meyl" fenomeni. Qrup konflikti və qrup qərarının qəbulu mexanizmi.

Qrup həmrəyliyi fenomeni. Qrup həmrəyliyinin sosiometrik indeksləri (C.Moreno). Qrupda sosial-psixoloji iqlim.Sosiometriya üsulu.

Kiçik qruplarda liderlik və rəhbərlik. Sosial psixologiyada liderlik nəzəriyyələri: "anadangəlmə keyfiyyət" nəzəriyyəsi, "şərait" nəzəriyyəsi, sistem nəzəriyyə. Rəhbərlik tərzləri.

***Mövzu 3. Qruplararası münasibətlər.***

Qruplararası münaibətlər sosial-psixoloji problem kimi.

Fərdin qrupdan asılılığı. Qrupdaxili favoritizm sosial fenomen kimi. Qruplararası münasibətlər və qrup prosesləri. Qruplararası qavrayış və dərketmə prosesinin spesifikliyi.

Qruplararası konfliktlər və önyarğılar. Önyarğılar şəxsiyyətin xarakteristikası kimi. Qruplararası aqressiyanı şərtləndirən amillər. Qruplararası davranış və qrup maraqları. M.Şərifin yay düşərgəsində apardığı tədqiqatlar. H.Taşfelin tədqiqatları.

Etnoslararası münasibətlər - qruplararası münasibətlərin bir növü kimi. Etnik stereotiplər və etnoslararası davranış. Cins-rol stereotiplərinin mahiyyəti və funksiyaları. Cinsi identiklik və "Mən - obrazın" psixoloji müdafiəsi.

***Mövzu 4. Böyük sosial qrupların psixoloji xarakteristikası.***

Sosial psixologiyada böyük qruplar problemi. Böyük qrupların təsnifatı. Böyük icmaların psixologiyasının məzmun xüsusiyyətləri: motivasiya-tələbat, idrak (koqnitiv), davranış-iradi və emosional sferalar. İctimai hərəkatlar – böyük sosial qrupların müxtəlifliyi kimi. İctimai hərəkatların növləri və onların xüsusiyyətləri.

Etnik qrupların psixoloji xüsusiyyətləri. "Milli xarakter" problemi və onun öyrənilməsi. Etnosentrizm təzahürünün sosial-psixoloji xüsusiyyətləri. Millətlərarası münasibətlərin sosial-psixoloji xüsusiyyətləri.

Kütləvi proses və hərəkatların sosial-psixoloji xüsusiyyətləri. Kütlə və izdihamın psixologiyası. Kütlələrin təşəkkülü mərhələləri. Kütlə və şəxsiyyət. Kütlə və liderlik problemi.

# V BÖLMƏ. SOSİAL PSİXOLOGİYADA ŞƏXSİYYƏT PROBLEMİ

## *Mövzu 1. Sosial psixologiyada şəxsiyyətin tədqiqi.*

Fərd, fərdiyyət və şəxsiyyət anlayışlarının psixoloji mahiyyəti. Şəxsiyyətin psixoloji strukturu. Şəxsiyyətin təşəkkülünün bioloji və sosial amilləri. Şəxsiyyət probleminə sosial-psixoloji yanaşmanın spesifikliyi.

Şəxsiyyətin sosial-psixoloji xarakteristikası. Şəxsiyyət - kommunikativ, interaktiv və perseptiv təsir sistemində. Şəxsiyyətin sosial-psixoloji xüsusiyyətləri: ətraf aləmin qavranılması və ona münasibət, özünürealla şdırma və özünütəsdiq zamanı nailiyyət motivasiyası, sivillik, vətəndaşlıq, kommunikativlik, sosial aktivlik və s. Şəxsiyyətin sosial-psixoloji nəzəriyyələri. Sosial-psixoloji tipologiyalar.

## *Mövzu 6. Şəxsiyyətin sosiallaşması.*

Sosiallaşma anlayışının mahiyyəti və əhəmiyyəti. Sosiallaşmanın sosial-psixoloji aspektləri: maddi, psixoloji əhəmiyyət kəsb edən amillər, sosial mühit amili, şəxsiyyətin sosial aktivliyi. Şəxsiyyətin təşəkkülünün üç sferası: ünsiyyət, fəaliyyət, “Mənlik” şüuru.

Sosiallaşmanın mənbələri: ailə, təhsil sistemi, kütləvi kommunikasiya vasitələri, ictimai təşkilatlar. Sosiallaşma prosesinin mərhələləri: ilkin və sonrakı sosiallaşma, fərdiləşmə və inteqrasiya mərhələləri, əmək və əməkdən sonrakı mərhələlər. İlkin və sonrakı sosiallaşmanın keyfiyyət fərqi.Sosiallaşma prosesində “Mənlik” şüurunun təşəkkülü. Sosiallaşma prosesində ictimai və qrup normalarının yeri və əhəmiyyəti.

Şəxsiyyətin sosial davranışını nizamlayan mexanimlər. Şəxsiyyətin sərvət dəyərlərinin formalaşması.

# VI BÖLMƏ. TƏTBİQİ SOSİAL PSİXOLOGİYA

## *Mövzu 1. Tətbiqi sosial psixologiyaya giriş. KİV və sosial davranış.*

Tətbiqi sosial psixologiyanın strukturu, predmeti, vəzifə və funksiyaları. Tətbiqi sosial psixologiyanın metodları. Tətbiqi sosial psixologiyada sosial-psixoloji diaqnostika. Sosial-psixoloji treninq: növləri. Tətbiqi sosial psixologiyanın əsas istiqamətləri.

İctimai fikir və ictimai əhval. İctimai fikrin təşəkkülü mexanizmləri. İctimai fikrin öyrənilməsinin sosial-psixoloji metodları. İctimai əhvalın təşəkkülünün sosial-psixoloji mexanizmləri. İctimai fikir və əhvalın formalaşmasında KİV-in rolu. Media və seksual zorakılıq. Qadınlara qarşı aqressiya: səbəb və nəticələri. Media və davranışın modelləşdirilməsi. Media və təqlid. Media və suisid. Reklamların təsirinə qarşı uşaqların inokulyasiyası. Video oyunlar və onların davranışa təsiri.

# ƏSAS ƏDƏBİYYAT


1. Bayramov Ə., Əlizadə Ə. *Sosial psixologiya*. Bakı: Qapp-Poligraf, 2003, 355 s.
2. Kağıtçıbaşı Ç., Cemalcılar Z. Dünden bugüne insan ve insanlar:Sosyal psikolojiye giriş. İstanbul: EVRİM Yayınevi, 2015, 382 s.
3. Aronson E., et al. Social psychology. Canada: Pearson, 2013, 603 p.
4. Myers D., Spencer S., Jordan C. Social psychology. Canada: McGraw-Hill Ryerson, 2012, 650 p.
5. Olson J., Breckler S., Wiggins E. Social psychology alive.Toronto: Nelson education, 2008, 657 p.


# ƏLAVƏ ƏDƏBİYYAT


1. Bayramov Ə.S. Etnik psixologiya. Bakı: Renessans, 2001, 374 s.
2. Əlizadə Ə. Azərbaycan güzəran psixologiyası məsələləri. Etnopsixoloji araşdırmalar. I hissə, Bakı: ADPU, 1994. 122 s.
3. Əyyub V. Akademik yazı üzrə bələdçi. Bakı: 2014. http://crrc.az/upload/Beledci%20Son_22.08.14.pdf
4. Cabbarova L.M. Psixologiyada tənhalıq problemi. Bakı: Azərbaycanfilm, 1997, 128 s.
5. Lebon Q. Kütlə psixologiyası.B.: Zəkioğlu, 2006, 327 s.
6. Məmmədli İ.M., Piriyev E.A. Ünsiyyət psixologiyası. Bakı: BDU nəşriyyatı, 2016.
7. Məmmədov A. M., Abasov R.K., Məmmədova N.Ə. İşgüzar münasibətlər və idarəetmənin psixologiyası. Bakı: H.Əliyev adına Beynəlxalq Aeroportun Poliqrafiya mərkəzi, 2005, 164 s.
8. ŞostromE. Anti-Karneqi və ya insan-manipulyator.Bakı : Alatoran yayınları, 2012, 128 s.

9. Arkonaç S. Sosyal psikolojide insanları anlamak: deneysel ve eleştirel yaklaşımlar. Ankara: Nobel, 2012, 306 s.
10. Kayaoğlu A., Gökdağ R., Kirel Ç. Sosyal psikoloji. Eskişehir: Anadolu Universitesi, 2011, 146 s. https://sosyolojiden.files.wordpress.com/2015/09/sosyal-psikoloji-2-ac3b6f.pdf
11. Caldini R. İknanın Psikolojisi. İstanbul: Mediacat, 2003, 368 s.
12. Sears D., Freedman J., Peplau L. Sosyal biliş. http://dergiler.ankara.edu.tr/dergiler/40/506/6135.pdf
13. Tarhan Nevzat. Toplum psikolojisi. İstanbul: Timaş, 2009, 335 s.
14. Neuendorf K. The Content Analysis Guidebook. Cleveland: SAGE, 2017, 403 p. http://academic.csuohio.edu/kneuendorf/SkalskiVitae/SkalskiNeuendorfCajigas17.pdf
15. Smith J., Haslam A. Social Psychology: Revisiting the Classic Studies. Los Angeles: SAGE, 2017, 296 p.
16. Андреева Г.М. *Социальная психология*. Москва: Пресс, 2006.
17. Берон Р., Ричардсон Д. *Агрессия.* СПб: Питер, 1998, 336 с.
18. Брайант Дж.,Томпсон С. *Основы воздействия СМИ*. Москва: Вильяме, 2004, 432 с.
19. Вачков И. Основы технологии группового тренинга. Москва: Из-во «Ось-89», 2007, 256 с.
20. Фопель К. Технология ведения тренинга: теория и практика. Москва: Генезис, 2013, 272.

# SOSİAL PSİXOLOGİYA İLƏ BAĞLI İNTERNET RESURSLAR VƏ LİNKLƏR

1. https://tr.wikipedia.org/wiki/Kategori:Sosyal_psikoloji
   Vikipediyada bir çox dillərdə (azərbaycan dilində məlumatların digər dillərə nisbətən məhdud xarakter daşıdığını nəzərə alaraq, türk və yaxud digər dillərdə müvafiq anlayışa uyğun axtarışın aparılması tövsiyə olunur) sosial psixologiyanın bəzi mövzuları və kateqoriyaları ilə bağlı izahlı lüğət xarakteri daşıyan çox da geniş olmayan məlumatlar verilib. Əlavə məlumat almaq üçün hər bir mövzu ilə bağlı məlumatların sonundakı linklərə baxmaq tövsiyə olunur.

2. http://www.enfal.de/sosyalbilimler/s/057.htm
   Burada əsasən sosial psixologiyaya giris,onun tarixindən bəhs edilir (*türk dilində*).

3. http://arsivde.blogspot.com/2012/06/sosyal-psikoloji.html
   Sosial psixologiyanın əsas kateqoriyaları ilə bağlı izahlı, lüğət xarakteri daşıyan maraqlı məlumatlar verilib (*türk dilində*).

4. http://study.com/academy/lesson/what-is-social-psychology-definition-professions-in-the-field.html
   İngilis dilində sosial psixologiyanın ayrı-ayrı mövzuları haqqında maraqlı slaydlar və tədris materialları verilib.

5. http://www.simplypsychology.org/social-psychology.html
   İngilis dilində sosial psixologiya haqqinda sadə dildə yazılmış maraqlı məlumatlar əldə etmək olar.

6. https://www.slideshare.net/mobile/omermba/gnmzde-nsan-ve-nanlar-blm-1
   Sosial psixologiyaya giriş mövzusunda türk dilində slaydlar.

7. http://slideplayer.biz.tr/slide/1999117
   Sosial psixologiya elmi və tarixi haqqında türk dilində slayd

8. http://www.dicle.edu.tr/Contents/eb2cc36a-19bd-4983-9503-c5a620cf1ece.pdf
   Sosial psixologiyanın predmeti və tarixi ilə bağlı Sakarya Universitetində hazırlanmış dərs materialı.

9. https://issuu.com/_mer_durmu_/docs/sosyal_psikoloji_ders_notlari
   Türk dilində sosial psixologiyadan geniş dərs materialları. Buradan əlavə ədəbiyyatlar tapmaq imkanı da var.

10. https://www.verywell.com/social-psychology-4013821
    İngilis dilində sosial psixologiya, onun ayrı-ayrı anlayışları və problemləri haqqında maraqlı məlumatlar var.

11. http://www.newworldencyclopedia.org/entry/Social_psychology
    İngilis dilində sosial psixologiya, onun ayrı-ayrı anlayışları və problemləri haqqında maraqlı məlumatlar var.